AZƏRBAYCAN POEZİYASI

# NÜSRƏT KƏSƏMƏNLİ

## SEÇMƏ ŞEİRLƏR

QANUN NƏŞRİYYATI

Ötən əsrin 60-cı illərində ədəbiyyata gəldi... İlk şeirləri ilə on minlərlə oxucunun sevgisini qazandı... Bu kitabda unudulmaz Nüsrət Kəsəmənlinin 57 illik ömründə qələmə aldığı seçmə şeirlər toplanıb. Kitab “Qanun” nəşriyyatının yeni layihəsi “Azərbaycan poeziyası seçmə şeirlər” silsiləsi çərçivəsində işıq üzü görür. Oxucuların poetik ruhunu təzələyəcəyinə və ən saf hisslərinə xitab edəcəyinə inanırıq.

**Nüsrət Kəsəmənli AZƏRBAYCAN POEZİYASI SEÇMƏ ŞEİRLƏR**
Bakı, Qanun nəşriyyatı, 2023, 344 səh.

Ölçü: 120x185 mm
Cild: qalın
Çapa imzalandı: 05.01.2023

Naşir: Şahbaz Xuduoğlu
Tərtib edən və redaktor: Əyyub Qiyas (Qi Or El)
Texniki redaktor
və mətn dizaynı: Asifə Əfəndi
Qapaq dizaynı: Rafael Qasım

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Q
anunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-481-9

© Qanun nəşriyyatı, 2023

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur. Kitabın təkrar
və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar
haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

## Mündəricat

Yaddan çıxmır Nüsrət Kəsəmənli........................................11
Avtoportret.............................................................................24
Dünya köhnə dünyadı............................................................27
"Unudanda baxarsan..."........................................................28
Yandır məktublarımı.............................................................30
Gedər, bu məhəbbət qalası deyil.........................................32
Qapını döymüşəm gecə yarısı.............................................33
Biri vardı, biri yox...................................................................35
Daha nağıllara inanmıram mən...........................................37
Yumul bənövşəm, yumul.....................................................39
Son sözün...............................................................................41
Neyləyim................................................................................43
Mən bu gülü dərəcəyəm, deyəsən......................................44
Bu şəhərin gecəsi...................................................................46
İsti yağışlar yağır...................................................................48
Gecikdi bu yağış.....................................................................50
Hardasa bir gözəl yaşar gizlicə.............................................53
Dünən toyun idi.....................................................................55
Arzudan o yana......................................................................57
Gələcəyəm..............................................................................58
Getmək istəyirsən..................................................................60
Bir qıza.....................................................................................62
Açılma sabah, açılma............................................................64
Belə ayrılmayaydıq................................................................65
İstək.........................................................................................67
Şeir yazmaq istəyəndə..........................................................70
İlk addım atırsan....................................................................72
O gözlərdə nə qəribə sevinc var?!........................................78
Bir ana gətirdik.......................................................................80
Elə kövrəlmişəm ki................................................................82

Ağlaya bilmirəm, ana ........ 85
Ürəyim ........ 87
Yaşıl sevgilər ........ 88
Payız gecəsində düşüncələr ........ 90
Durnalar bahar axtarır ........ 92
İnana bilmirsən ........ 94
Dedin son sözünü ........ 97
Əlim əlinə yetmədi ........ 99
Sənsiz ........ 100
Gecə yata bilmirəm ........ 102
Ürəyimdən keçirsən ........ 103
Həsrət ........ 105
Dördüncü mərtəbədə ........ 106
Bəlkə, görmədim səni ........ 108
Sınıq pəncərələr ........ 109
Ehtiyatlı ol ........ 111
Sevgi hələ ömür deyil ........ 112
Bu da bir yuxu idi ........ 115
Bilirəm, çətindir ........ 117
Biz ki, ayrıldıq ........ 119
Sahildə biri ağlar ........ 121
Daha geri qayıtmağa güman yox ........ 122
Etiraf ........ 123
Tələsmə ........ 125
Bahar dönəcək yenə ........ 126
Niyə gəlmədin ........ 128
Çiçəklər sevinsin ........ 129
Daha gecdir ........ 130
Gələn görüşə kimi ........ 131
Həqiqət ........ 132
Qorxu ........ 134
Vətən alov etsin odunu sənin ........ 136

Qırmızı kitab ....................................................................138
Günəşə yüyürən uşaq ........................................................140
Ağacın altında kölgə..........................................................142
Mənim o acağa yazığım gəlir ...............................................144
Cəngi.................................................................................145
Sənə göl dedilər ................................................................147
Gecənin içində tənha bir işıq .............................................148
Yoluma çıxan dağ..............................................................150
Küçə işıqları ......................................................................152
Gözüyumulu gecə .............................................................154
Balası vurulan qurd ...........................................................156
Yaman dolub bu bulud ......................................................158
Divara deyilmiş şeir ..........................................................160
Zamanı duelə çağırıram mən .............................................161
Özümə ...............................................................................164
Bəlkə gələn oldu ...............................................................166
Mənim bu şəhərdə kimim var, axı........................................168
Yorğunluq .........................................................................170
Mənsiz qalacaqdır bu dünya bir gün ....................................172
Ölümə tərəf .......................................................................174
Qapamayın gözlərimi ........................................................175
Bu qəfil görüşün ...............................................................176
Yar yaxası düymədi ..........................................................178
Başlamaq olarmı ömrü yenidən ..........................................179
Kitab arasında qurumuş ləçək..............................................181
Kaş ki ................................................................................183
Şübhə ................................................................................184
Yasəmən ...........................................................................186
Deyəsən.............................................................................188
Göz yaşını axıtmağa dəyərmi...............................................189
Əllərin nə yaman soyuqdur, gülüm .....................................191
Təskinlik.............................................................................192

Sarı gəlin....................................................................................193
Bizim görüşümüz ..........................................................................194
Yalan...........................................................................................196
Bu səhər.......................................................................................198
O soyuq axşamda ..........................................................................200
Bir damla göz yaşı.........................................................................202
Budaqlarım yenə çiçək açacaq .......................................................204
Mən ki, sən deyiləm.......................................................................205
Yavaşıdılmış kadrlar ......................................................................207
Mənə inanmırsan bir yuxu kimi.....................................................208
Xatırlatma mənə sən .....................................................................210
Özüm haqqında kadr arxasından diktor mətni..............................213
Dayan, bahar çağım.......................................................................216
Hələ bu dünyada işim var mənim .................................................219
Köhnə evlə vida ............................................................................222
Sənin acığına ................................................................................224
Vətən ...........................................................................................225
Qərib axşamın sükutu ...................................................................227
Ağlama, Təbrizim ağlama ..............................................................230
Deyəsən, təzədən..........................................................................232
Bənövşələr oxuyur ........................................................................235
Vətəndən ayrılarkən......................................................................237
Bir sevda ağlayır............................................................................238
İnanma əzizim, inan, əzizim..........................................................240
Buluddan yuxarı ............................................................................242
İndi gedəcəyəm.............................................................................244
Məni görməmisən..........................................................................246
Xəyalın göylərdən torpağa enib......................................................248
Axı, nə verəcək bu sevgi bizə..........................................................250
Nə biləydik ....................................................................................252
Sən gərək.......................................................................................254
Yazığım gəlir .................................................................................256

İsitməz qəlbini ....................257
İradəsizlik....................258
Hara gedirəmsə....................260
Gördüm bu günü....................261
Sən demə təzədən sevmək olarmış ....................263
Dərd ....................265
...O gün dünya....................267
**DURĞU İŞARƏLƏRİ**
Nöqtə....................269
Vergül....................270
Nida ....................270
Sual....................271
Tanıya bilmədim....................272
Bir yarpaq ümid....................273
Alnından öpdüklərim....................275
Hazır qəbirlər....................277
Qərib axşamlar....................280
Akvarium ....................281
A dağlar, qalayın qarı sinəmə ....................283
İş otağım....................284
Ömürdən bir gün də....................285
Nə oldu....................287
Göndərmədiyim məktub....................288
...Yenə də gül-çiçək üzür cavanlar....................289
Deyəsən, yolumuz ayrıldı bizim....................290
Sən unut demişdin....................291
Gözlərimdəki yazı....................293
Məhəbbətdən küsəndə....................295
Bahara deyərəm....................297
Əgər yuxudursa....................299
Birimiz dan yeri ....................301
Vəfalı qızlardan az yazırıq, az ....................303

Ürəyim qayğısız deyib-gülürdü ........................................ 304
Hara gedirsən .................................................................. 306
Apardı sellər Saranı .......................................................... 308
Elə bir gün gələcək ki... ..................................................... 310
Özün yıxılıbsan................................................................. 311
Gülə-gülə ağlayan gözəl .................................................... 313
İkimiz də ........................................................................ 315
Sevənlər deməyəydi .......................................................... 316
Bu sevgi amandan, ahdan keçibdi ........................................ 317
Sevdirə bilmədim ............................................................. 318
De, necə inanım? .............................................................. 319
Kim olacaq? .................................................................... 320
Sevə-sevə ayrılaq.............................................................. 321
Bir də görəsən ki .............................................................. 322
Qonaqtək gələrəm............................................................. 323
Həsrət ............................................................................ 324
Bu sevgi vüsal yox, həsrət vəd edir ...................................... 326
Elə bil, dünən idi............................................................... 327
Dəlisən, dəli ..................................................................... 328
Sonsuz dayanacaq ............................................................ 329
Elə tələsdik ki, mənzil başına ............................................. 330
Gah küsüb, gah barışırıq ................................................... 331
Tanımır məni.................................................................... 332
Dilənçi ........................................................................... 333
İrəvanda xal qalmadı......................................................... 337
Analar ............................................................................ 339
Xatirə dənizi .................................................................... 341
Tələsmə ......................................................................... 343
Müəllif haqqında .............................................................. 344

## YADDAN ÇIXMIR NÜSRƏT KƏSƏMƏNLİ

Nüsrət Kəsəmənli mənim bu dünyada ŞAİR adına gördüyüm birinci şəxs idi. 1966-cı ildə, fevral ayında Bakıda yuxarı sinif şagirdlərinin respublika toplanışına gəlmişdik. Nüsrətlə orada tanış oldum. O, hamının diqqətini özünə cəlb eləmişdi. Təkcə oxuduğu şeirlərlə yox, ağıllı, məntiqi söz-söhbətiylə. Ətrafında qızlar əksik olmurdu və mən deyim ki, bu vəziyyət – bu ünas tayfasının Nüsrətlə daimi "diplomatik" ünsiyyəti ömrü boy davam elədi.

1967-ci ildə mən ADU-nun filologiya fakültəsinə daxil oldum. Nüsrət Eyyubov da (o zaman hələ Kəsəmənli deyildi) o fakültəyə daxil olmuşdu, amma jurnalistika şöbəsinə. Çox zaman leksiyalarda bir yerdə olurduq. Təbii ki, tez-tez görüşürdük. Hərdən ona qoşulub şeir məclislərinə gedirdim. Nüsrət "Heyif o sevgiyə" şeirlər kitabını (2000 ) mənə belə bir avtoqrafla təqdim eləyib: *"Ədəbi aləmdən şəxsən ilk və qədim dostum Vaqif Yusifli üçün müəllifdən xatirə. 30 may 2000"*

Nüsrət Kəsəmənli həmişə populyar şair olub. Özü də müvəqqəti, bir zaman kəsiyinin populyar şairi yox. Bu populyarlığı ona poeziyası qazandırmışdı. Yadımdadır ki, Nüsrətin şeirləri cavan qızların, oğlanların şeir

dəftərlərinin bəzəyi idi, sevən oğlan və qızlar görüşə gedəndə çox zaman Nüsrətin şeir kitablarını özləriylə aparırdılar. İndi Nüsrətin ölümündən altı il keçsə də, o şeirlər yenə də sevilə-sevilə oxunur, əzbərlənir. Deməli, XXI əsrdə də, həqiqi sevginin qıt olduğu bir zamanda da o şeirlərsiz keçinmək olmur. Amma mən Nüsrəti təkcə sevgi şairi kimi təqdim etmək istəmirəm. Nüsrət Kəsəmənli ədəbiyyata altmışıncı illərin sonlarında gəlmişdi. Tanınmış şair-ədəbiyyatşünas Qasım Qasımzadə "Azərbaycan gəncləri" qəzetində Nüsrətə "Uğurlu yol" yazmışdı. Onda Nüsrət özünə səhv eləmirəmsə, "Eldost" təxəllüsü götürmüşdü. Amma bu, uzun çəkmədi, az sonra Nüsrət Kəsəmənli imzası hamının diqqətini özünə cəlb etdi.

Altmış-yetmişinci illərin şeir gecələrini, poeziya axşamlarını xatırlayıram. Onda indiki kimi deyildi, hamı poeziya havası ilə yaşayırdı, indiki kimi saysız-hesabsız kitab təqdimatları keçirilmirdi, şairlərin ünvanına şit təriflər söylənilmirdi. Nüsrət Kəsəmənli o şeir gecələrində həmişə axırıncı çıxış eləyənlərdən biri olurdu. Alqışların hamısını yığıb aparırdı özüylə. O, şeir deyəndə tamam dəyişirdi, oradakı hisslərlə, duyğularla yaşayırdı.

"Sevgi şairi", "təbiət şairi", "cəmiyyət şairi"... Çox zaman şairləri qələmə aldıqları mövzularına görə bölgülərə ayırırlar, seçirlər, fərqləndiririrlər. Belə çıxır ki, "sevgi şairi" ancaq sevgidən, "təbiət şairi" ancaq təbiətdən, "cəmiyyət şairi" isə ancaq cəmiyyət hadisələrindən yaxşı yaza bilər. Bu yanlış mülahizəyə görə Nüsrət Kəsəmənli də sırf sevgi şairi kimi təhlil və şərh olunmalıydı və tənqidçilər də

onun yaradıcılığına elə bu nöqteyi-nəzərdən yanaşırdılar. Yeri gəlmişkən deyim ki, Nüsrət Kəsəmənli poeziyası sağlığında ədəbi tənqidin gündəmində, daimi diqqət mərkəzində olmadı. Biz Nüsrətin poeziyasına vaxtında qiymət verə bilmədik. Tək-tük yazılarda isə onun sevgi şeirlərində cəmiyyətin əks-sədasını axtardıq. Ancaq bütün bunlara görə heç də təəssüflənməyə dəyməz, çünki Nüsrət Kəsəmənlinin poeziyası dünənin yox, həm də bu günün poeziyasıdır.

***İçimdən qəm ilməli***
***Əriş-arğac keçibdir,***
***Sevinc yarıtox gəlib,***
***Qəm yarıac köçübdür.***
***Sel olan göz yaşımı***
***Bir ehtiyac içibdir.***
***Tanış olaq, oxucum,***
***Tanış olaq: Bu mənəm.***

Nüsrət Kəsəmənlinin "Avtoportret" şeiri onun keçdiyi həyat yolunu, mənəvi dünyasını, bir cəmiyyət adamı kimi sosial mövqeyini az da olsa, açıqlayır (hərçənd ki, bir şeirlə şairin dünyasını tam bəlirləmək heç də mümkün deyil, çünki şairin dünyası şeirlərindəki görünən dünyadan daha mürəkkəbdir). Amma hər halda "Avtoportret" şeirində onun bəzi cizgiləri öz əksini tapıb:

***Əllərimi uzadıb***
***göylərə kök atıram***

*"Şeş"i nəzərdə tutub*
*həmişə yek atıram*
*Mən şeir yazmıram ki,*
*ürəkdən yük atıram*
*Tanış olaq, oxucum,*
*Tanış olaq, bu mənəm.*

Nüsrətin poeziyasında lirik "mən" – şair obrazı çox qabarıq nəzərə çarpır. Bu poeziyada elə bircə Qəhrəman – bircə Obraz var, o da Nüsrət Kəsəmənli özüdür. Onun keçdiyi həyat yolu, yaşadığı hisslər və duyğular bu obrazda öz əksini tapmışdır: atalı-analı ola-ola atasızlığın, anasızlığın cövrünü çəkən Nüsrət tələbəlik illərinin coşqun, qaynar anlarını yaşayan, dərslərdə, mühazirələrdə az-az görünüb daha çox yaşayıb-şeirlə nəfəs alan, bir çox sevgi macəralarının qəhrəmanı Nüsrət – poeziya aləmində özünü təsdiq etməyə çalışan, "zamanı" duelə çağıran Nüsrət – içində iki "mən"i, iki dünyası olan, öz-özünə qalib gəlib, öz-özünə məğlub olan Nüsrət – həyatda qazandığından çox itirdiyinə təəssüflənən Nüsrət... Bir sözlə, əsl şair ömrü, şair taleyi.

*Yalan məhəbbətlə "baxt" güldürməkdən*
*Usandım mən daha,*
*Bezikdim daha*
*Görüş yerlərində vaxt öldürməkdən*
*Əsl məhəbbətə gecikdim daha.*
*Geriyə qayıtmaq asan iş deyil,*
*Çıxdığım pillələr uçulub gedib.*

***Zamana mən necə atdan düş deyim,***
***Cilovu əlimdən açılıb gedib.***

"Zamanı duelə çağıran bir şairin hər dəfə keçilmiş ömür yoluna təəssüflə nəzər yetirməsi təsadüfü deyildi. Həmin illərin poeziyasında bu cür etiraflar tez-tez səslənirdi. Maraqlıdır ki, bu etirafları dilə gətirən şairlərin hamısı elə bil, harasa tələsirdilər. Nüsrət deyirdi ki: "Şimşəkdən qanad al, yolun uzaqdı, Hələ neyləmisən, ömür yarıdı. Səni gedəcəyin son mənzilə də. Şeirin qanadında aparmalıdı". Bu şairlərin hər biri Zirvəyə tələsirdi – Poeziyanın zirvəsinə, Ömrün zirvəsinə! Əlbəttə onların bir çoxu Zirvəyə gedən yolda büdrədi, bəziləri Zirvənin lap yaxınlığında oldu, amma ora ucala bilmədi, bəziləri isə iddia və imkan arasındakı təzada qurban getdilər. Bəs Nüsrət? Nüsrət hər halda poeziyada öz cığırını açdı, bu cığırı YOLa çevirə bildi.

Belə bir fikir var ki, dünyada nə qədər şair olursa, o qədər də fərdi üslub, yazı manerası var... "Qoy lap qurbağanın nəğməsi olsun, dünyaya təzə bir nəğmə ver ancaq" (Sergey Yesenin). "Üslub – bütün üslubların yaddan çıxarılmasıdır" (Jül Renar). Əlbəttə, söhbət qromofon yazarlardan yox, əsl şairlərdən gedir. Üslub yaradıcılıqda özünü təsdiq etmək deməkdir.

Nüsrət Kəsəmənli də ədəbiyyata gələndə poeziyaya təzə bir nəfəs gətirdi. Bütün şairlər sevgidən yazırdı, hamı eşqi, məhəbbəti tərənnüm edirdi, hamı sevgilisinin camalını vəsf edir, ya da hicran alovlarında yandığından söz açırdı. Nüsrət isə sevgini, konkret olaraq iki gəncin münasibətini heyrət və tərənnüm, gözəlin vəsfi üzərində